# TƏLİMDƏ GERİ QALAN ŞAGİRDLƏRLƏ İŞİN TƏŞKİLİ TƏCRÜBƏSİNDƏN

**Könül Vəliyeva,**
*Bakı şəhəri, Xətai rayonu 27 nömrəli tam orta məktəbin ibtidai sinif müəllimi*
E-mail: konul.valiyeva2016@gmail.com

**Rəyçilər:** *ped.ü.fəls.dok.* İ.B. Əmirəliyeva,
*dos.* S.N. Heydərova

***Açar sözlər**: təlim, şagird, gerilik, bacarıq, təcrübə*
***Ключевые слова**: обучение, ученик, отставание, умение, опыт*
***Key words**: training, pupil, backwardness, ability, experiment*

**Məqalənin aktuallığı.** Ümumtəhsil məktəblərin ibtidai təhsil səviyyəsində bəzən müşahidə olunan qeyri-adi vəziyyətlər silsiləsindən yadda qalan daha çox ***təlimdə geri qalan şagirdlərlə olan iş təcrübəsidir***.

Elmi ədəbiyyatda kiçik məktəb yaş dövründə təlimdə geri qalma halını psixoloji məktəb dezadaptasiya səbəbi kimi qiymətləndirirlər. Təlim imkanı məhdud olan uşağın yeni situasiyaya – təlim situasiyasına, müəllimin təlim tələbi və ünsiyyət üslubuna uyğunlaşması hələ tam dərəcədə formalaşmamış olur. Belə çatışmazlıqlar təlim fəaliyyəti üsullarında, bilik dairəsində olan boşluqda və təlim göstəricilərində əks oluna bilər (1).

Digər tərəfdən isə, təlim materialını mənimsəmə çətinliyi ilə əlaqədar təlimdə yaranan geriləmələr dezadaptasiya halına gətirib çıxara bilər. Bu özünü uşaq üçün ən yaxın insanlar olan müəllim və valideynlərin ona olan mənfi münasibətində yer alır (6).

***Təlimdə geri qalma*** ümumtəhsil məktəbin ibtidai təhsil səviyyəsi üçün ciddi problemdir. Elmdə bu erkən təlim geriliyi kimi qeyd olunur. Kiçik məktəb yaş dövründə təlim fəaliyyəti aparıcıdır və o, idrak proseslərində diferensasiyanı təyin edir (yəni, uşaq nəyi öyrənmək, necə öyrənmək, necə yadda saxlamaq və s. kimi hallara düşüncəli olaraq yanaşır), şəxsiyyət strukturunda dəyişikliklər yaradır. Ümumtəhsil məktəblərin ibtidai təhsil səviyyəsində təlimdə geri qalma halları isə geniş problem dairəsinin mənbəyinə çevrilir və uşaq şəxsiyyətinin tam inkişafına mənfi təsir göstərir (7, 8).

***Təlimdə geri qalan uşaq*** ilə aparılacaq istənilən korreksiya tədbirləri üçün diaqnostika məlumatları vacibdir. Diaqnostika vasitəsi ilə konkret şagirdin təlimdə gerilik səbəbləri təyin edilir və bu əsas üzərində valideyn, pedaqoq və məktəb psixoloqunun birgə iş planı tərtib olunur. **Pedaqoji təcrübədən** irəli gələrək demək olar ki, təlimdə geriləmə hallarına qarşı ən səmərəli üsul məktəb öncəsi uşağın psixo-pedaqoji olaraq məktəb təliminə hazırlanmasıdır.

Ümumtəhsil məktəbin ibtidai təhsil səviyyəsi dövründə **təlimdə geri** qalma hallarına pedaqoq psixoloqlar daha çox aşağıdakı halları aid edirlər: 1. Təfəkkürün inkişafında olan çatışmazlıqlar; 2. Təlim-əmək bacarıqlarının aşağı səviyyəsi; 3. Bilik dairəsində boşluqların olması; 4. Təlimə mənfi münasibət 5. Sağlamlıq probleminin, yorğunluq hallarının üstünlük təşkil etməsi; 6. İradi keyfiyyətlərinin inkişafının aşağı səviyyəsi və intizamsızlıq; 7. Ailənin, dostların mənfi təsiri, məktəb təliminin yetərincə olmaması.

Deyilənlərdən aydın oldu ki, **Təlimdə geriləmə** halları uşağın həm "daxili" həm də "xarici" mühiti ilə əlaqəlidir. Yəni, təlimdə geriləmə halları həm uşağın inkişaf xüsusiyyətindən, həm də onu əhatə edən sosial mühitin neqativ təsirində ola bilər (8).

**Problemin elmi yeniliyi**. Təlim fəaliyyəti yarımotivdir. Onu tam dolğun edib istiqamət və məna verən isə sosial motivlər, idrak maraqları və nailiyyətin motivasiyasıdır. Daha səmərəliliyi isə geniş miqyaslı sosial motivlər (məktəb həyatı ilə əlaqəli olan vətəndaşlıq borcu, dostluq hissi və s.), şagirdi təlim fəaliyyətinin məzmununa,

idrak maraqlarına və keyfiyyətli təlim nəticəsi almağa yönəldən və nailiyyətin əldə olunmasını təmin edən təlim motivasiyasıdır.

Motivasiya dairəsində olan çatışmazlıq təlim geriliyinin əsas səbəblərindən biri ola bilər. Hətta psixi infantilizm (uşağın maraqları öz fizioloji yaş dövrünə yox, daha kiçik yaş dövrünə təsadüf etsin) zamanı uşaq öz yeni *məktəbli* sosial statusunu qəbul etmir (4).

***İş təcrübəsində*** müşahidə olunan analoji effekti iradə dairəsində olan zəiflik zamanı da görmək olar. Təlim motivasiyası və iradə dairəsində çatışmazlığı olan şagirdlər şəxsiyyət olaraq hələ məktəb təliminə hazır olmurlar.

**Problemin praktik əhəmiyyəti.** Pedaqoji boşluğa malik uşaqlarda intellektin inkişaf səviyyəsi normal olur. Hətta bəzi fənlər üzrə bu uşaqlarda yüksək potensial imkanlarını da müşahidə etmək olar. Lakin lazım olan bilik, bacarıq və vərdiş bazasının yetərincə olmadığı üçün belə uşaqlar təlim prosesində öz güclü tərəflərini göstərə bilmirlər. İş təcrübəsinə istinad edərək söyləmək olar ki, belə uşaqlara təlim fəaliyyətinin təşkili üçün asanlıqla yardım etmək mümkündür. Belə uşaqlar təlim fəaliyyətindən yüksək nailiyyət əldə edə bilirlər. Onlar tez bir zaman ərzində müəllimin köməyini qəbul edir və məktəbəqədər dövrdə qazana bilmədiyi bilik boşluğunu sürətli şəkildə məktəb dövrü zamanı mənimsəyirlər.

Təlimdə gerilik uşaq kateqoriyasına hiperaktiv uşaqlar, ləng hərəkət edən uşaqlar, həyəcanlı uşaqlar, solaxay uşaqlar və s. daxildir.

***Diqqət pozuntusu və hiperaktiv sindromu*** ilə əziyyət çəkən uşaqlara adətən ibtidai sinif səviyyəsində daha çox rast gəlinir. Belə uşaqlarda diqqət çatışmazlığı əsas qüsur mənbəyi olduğu üçün onların məktəb həyatında təlim ilə əlaqəli ciddi çətinlikləri yaranır (3).

***Ləng hərəkət edən uşaqlar*** hiperaktiv uşaqlar kimi davranış və fəaliyyətində olan spesifik xüsusiyyətlərinə görə digər adi uşaqlardan fərqlənirlər. Bu uşaqlar yöndəmsiz olaraq həmişə gecikir, heç bir işi vaxtında çatdırmırlar. Sinifdə onlar dərsi hamıdan gec yazır, ev tapşırıqlarını yerinə yetirməyi çatdırmırlar.

İbtidai sinif səviyyəsində ***yüksək həyəcanı*** ilə özünü göstərən uşaqlara rast gəlinir. Uşaqlarda həyəcanın davamlı müşahidə olunması gələcəkdə onun şəxsiyyəti üçün bəzi problemləri yaşatmağa məcbur edəcək (5).

Elmdə ***Solaxaylıq*** nə patologiya, nə də çatışmazlıq kimi təyin olunur. Solaxaylıq-mühüm fərdi xüsusiyyət olaraq təlim prosesində müəllimin bu şagirdi diqqət mərkəzində saxlamasına ehtiyac vardır.

Əllərin asimmetriyası, yəni fəaliyyət prosesində sağ və ya sol əlin dominant olması baş beyin yarımkürələrində funksional asimmetriya xüsusiyyəti ilə şərtləşmişdir. Sağaxaylarda sol yarımkürə dominantdır və verbal informasiyanın emalında sol yarımkürə mühüm rol oynayır. Solaxaylarda isə sağaxaylarda olduğu kimi yarımkürələr arası əsas funksiyaların fəaliyyəti asimmetriya şəklində olmur. Aparılan tədqiqatlar göstərmişdir ki, solaxaylarda funksional asimmetriya özünü aydın göstərmir. Yəni nitq mərkəzi solaxaylarda həm sol, həm də sağ beyin yarımkürələrində yerləşə bilər, sağ yarımkürənin funksiyası olan görmə-məkan funksiyasına eyni zamanda sol yarımkürədə nəzarət oluna bilər. Beləliklə, solaxay uşaqlarda baş beyin yarımkürələrin işində qeyri-dəqiqlik müşahidə olunur.

Bununla yanaşı, aparılan çoxsaylı elmi tədqiqatlar solaxay insanların lider, intellektual potensialı güclü, yüksək yaradıcılığa malik olduqlarını sübut etmişdir (2).

***İş təcrübəsindən.*** Təlimdə çətinlik çəkən şagirdlərlə işləyərkən biz fərqli yanaşma üsulundan istifadə edirik. Yəni, abstrakt (mücərrəd) xarakterli sualları onlara şamil etmirik. Dərs zamanı hər-hansı bir sualı onlar üçün elementlərə bölürük və bu elementləri əyani vəsaitlər üzərində nümunə kimi göstəririk. Məsələn, riyaziyyat dərsində toplama əməliyyatını əyani vəsaitlər üzərində qururuq. Fərdi olaraq hər bir uşaqla işləyərkən çalışırıq ki, təlim tapşırıqları əyani vəsaitlər üzərində tətbiq olunsun və uşaq dərs tapşırığını anlaya bilsin. Belə yanaşma üsulu vasitəsilə uşaqda tədris olunan fənnə maraq oyanır və təlim fəaliyyəti motivləşir.

## ƏDƏBİYYAT

1. Mehrabov A.O. Müasir təhsilin konseptual problemləri. Bakı: Mütərcim, 2010.
2. Məmmədova M.Ə. Hiperaktiv uşaqlarda diqqətin pozulması: Dərs vəsaiti. Bakı: ADPU-nun nəşri, 2017.
3. Məmmədova M.Ə. Xüsusi qayğıya ehtiyacı olan uşaqlarla psixokorreksiya işinin təşkili: Metodik vəsait. Bakı: ADPU-nun nəşri, 2016.
4. M. Məmmədova Kiçik məktəblilərə və məktəbəqədər yaşlı uşaqlara göstərilən psixoloji xidmətin bəzi məsələləri // "Təhsil sistemində gənc nəslin təlim-tərbiyəsi üzrə işin təşkili və onun yaxşılaşdırılması istiqamətləri" mövzusunda respublika elmi konfransın materialları. Bakı, 2012, 28 iyun
5. M. Məmmədova "Risk qrupu"na aid kiçik məktəb yaşlı uşaqların xarakterik xüsusiyyətləri. // Gəncə Dövlət Universiteti Gənc alimlərin I beynəlxalq elmi konfransın materialları. Gəncə, 2016, 17-18 oktyabr
6. Təhsilin inkişafı üzrə Dövlət Strategiyası: perspektivlər və vəzifələr. Bakı: Təhsil Problemləri İnstitutunun Təhsil Texnologiyaları Mərkəzi, 2015.
7. Yeni təhsil proqramlarının (kurikulumların) tətbiqi məsələləri / nəşrə haz.: Ə. Abbasov, İ. Cavadov. Bakı: Mütərcim, 2014.
8. Маклаков А.Г. Общая психология: Учебник для вузов. СПб.: ПИТЕР, 2013.

**К.А. Велиева**

## ИЗ ОПЫТА ОРГАНИЗАЦИИ РАБОТЫ С УЧЕНИКАМИ, ОТСТАЮЩИМИ В ОБУЧЕНИИ

***РЕЗЮМЕ***

Отстающие в обучении ученики являются серьезной проблемой для начального образования общеобразовательной школы. В статье раскрыты моменты отставания в обучении, вызывающие наибольшее беспокойство у специалистов. Кроме того, в статье предоставлена информация, относящаяся к категориям детей с гиперактивностью, замедленной реакцией, тревожностью и леворукостью. До читателя доведена короткая информация из практического опыта работы с детьми, относящимся к этим категориям.

**K.A. Veliyeva**

## FROM THE EXPERIENCE OF ORGANIZING WORK WITH PUPILS WHO ARE LAGGING IN LEARNING

***SUMMARY***

The students who are lagging behind in learning are a serious problem for the primary education of the general academic school. The article reveals the moments of the backlog in learning, which cause the greatest concern among specialists. In addition, the article provides information related to the categories of children with hyperactivity, delayed response, anxiety and left-handedness. Short information from the practical experience of work with children belonging to these categories has been brought before the reader.

**Redaksiyaya daxil olub:** 27.12.2017